*Erməni və azərbaycanlı döyüşçüləri arasında əsirlərin dəyişdirilməsi barədə danışıqlar, Dağlıq Qarabağ, 1992-ci il.*

*Mənbə: TASS/Sovfoto*

# Giriş

## Lorens Broers

Lorens Broers Gürcüstanda etnik münaqişələr və zorakılıq üzrə Şərqşünaslıq və Afrikaşünaslıq Ali Məktəbində doktorluq dissertasiyasını müdafiə edib. Gürcüstan, Ermənistan və Azərbaycanda müxtəlif QHT layihələrində və vətəndaş cəmiyyətinin fəalları ilə görüşlərdə iştirak etmişdir.

Dağlıq Qarabağ bölgəsi üstündə gedən erməni-Azərbaycan münaqişəsi 1994-cü ilin atəşkəsindən bəri on ildən artıqdır ki, "nə savaş, nə sülh" vəziyyətindədir. Bu münaqişə həm Ermənistan və Azərbaycanın siyasi inkişafı yolunda, həm də bütöv Cənubi Qafqaz regionunun inkişafı və dünyaya inteqrasiyası üçün əsas maneədir. Bu münaqişə öz müqəddəratını təyin etmə və dövlətlərin ərazi bütövlüyü prinsiplərinin ziddiyyəti çərçivəsində keçmiş Sovet İttifaqı respublikalarında cərəyan edən münaqişələrdən biridir. Münaqişə tərəfləri onların mövqelərini müəyyən etməkdə davam edən bu prinsipləri beynəlxalq təcrübə üçün daha çox səciyyəvi olan nisbi mənada deyil, mütləq mənada qəbul edirlər. Ermənistan və Dağlıq Qarabağ erməniləri əvvəllər Sovet Azərbaycanın daxilində muxtar vilayət olan Dağlıq Qarabağın öz müqəddəratını suveren təyin etmə hüququna israr edirlər; Azərbaycan öz növbəsində keçmiş sovet sərhədləri çərçivəsində ərazi bütövlüyünə təkid edərək ermənilərə dəqiq müəyyən edilməmiş muxtariyyət təklif edir.

Kökündə ərazi mübahisəsi duran 1991-1994-cü illərin müharibəsi ermənilərin həlledici hərbi qələbəsi, Dağlıq Qarabağın ermənilərin nəzarətinə keçməsi və yeddi ətraf rayonun işğal edilməsi ilə nəticələnmişdir. Bu ərazilərin işğal altında saxlanılması və ya azad edilməsi kartından istifadə edən ermənilər Dağlıq Qarabağın gələcək statusunun həllini prioritet məsələyə çevirərək onu digər məsələləri müzakirə etmək üçün ilkin şərt kimi irəli sürürlər. Buna görə də, müharibənin nəticələri barəsində danışıqları qarşıdurmanın özəyində duran məsələlərdən ayırmaq cəhdləri bu vaxta kimi boşa çıxmışdır.

Sülh prosesində hər hansı irəliləyişin olmadığından irəli gələn məyusluq və planetin digər nöqtələrində daha təxirəsalınmaz problemlərə reaksiya vermək zərurəti fonunda on ildən artıq çəkən durğunluq beynəlxalq səviyyədə münaqişəyə olan diqqətin tədricən zəifləməsinə gətirib çıxarmışdır. "Akkord"un bu nəşrinin məqsədi Qarabağ sülh prosesinə yenidən diqqəti çəkmək və hazırkı sabit durğunluğun səbəblərini öyrənməkdir. Nəşrin birinci hissəsində münaqişənin tarixinə, tərəflərin bu tarixə olan bir-birinə rəqib nəzər nöqtələrinə və sülh prosesinin ətraflı şərhinə yer verilib. Lakin döyüş meydanı və danışıqlar masasından kənarda həm Ermənistan, həm də Azərbaycan cəmiyyətləri münaqişənin nəticəsində əsaslı dəyişikliklər yaşamışlar. Bunların arasında həm ermənilərin Azərbaycandan, həm də azərbaycanlıların Ermənistandan sürgün



edilməsi (və bununla əlaqədar hər iki respublikanın etnik müxtəlifliyinin əhəmiyyətli dərəcədə itirilməsi), cəmiyyətlərin və siyasi mədəniyyətin hərbiləşməsi, ardınca gələn demokratik impulsların zəifləməsi, inzibati amirlik iqtisadiyyatından bazar münasibətlərinə onsuz da iztirablı olan keçidi daha da ağırlaşdıran blokada və sərmayə itkilərindən irəli gələn iqtisadi inkişafın donmasını göstərmək olar. Nəşrin ikinci hissəsindəki məqalələr davamlı sülhün əldə edilməsi üçün tələb edilən geniş dəyişikliklərə toxunur.

## Terminlər haqqında

Dağlıq Qarabağ münaqişəsini araşdırmağa başlayan zaman qarşıya çıxan birinci problem ondan ibarətdir ki, münaqişə tərəflərinin və həmçinin kənar müşahidəçilərin hər biri münaqişəyə fərqli qiymət verdiyindən, onun strukturunu da müxtəlif cür müəyyən edirlər. De Vaal öz giriş məqaləsində münaqişənin uyuşmaz etnik və ya dini xüsusiyyətlər və yaxud "sivilizasiya" fərqləri zəminində meydana çıxması haqqında geniş yayılmış fikirləri dərhal puça çıxarır. De Vaal aydın göstərir ki, belə şərhlər nə ermənilərlə azərbaycanlıların tarixən yan-yana dinc yaşamasını, nə də onlar arasında vaxtaşırı püskürən zorakılığın təbiətini izah etməyə qadir deyil.

Ardınca gələn məqalələr tərəflərin münaqişəyə olan bir-birinə zidd mövqelərini və münaqişəni həll etmək üçün zəruri struktur və sülh prosesi haqqında təzadlı nəzər nöqtələrini işıqlandırır. Ermənistan və Azərbaycan xarici işlər nazirləri Vartan Oskanyan və Elmar Məmmədyarovun təqdim etdikləri iki məqalə müvafiq dövlətlərin rəsmi mövqelərini ifadə edir. Azərbaycanın rəsmi mövqeyi münaqişəni Azərbaycanla Ermənistan arasında ikitərəfli dövlətlərarası münaqişə kimi müəyyən edir. Bu mövqe erməni irredentizmi, ərazi ekspansiyası və Azərbaycan torpaqlarının hərbi təcavüzü anlamlarına söykənir. Bu mövqeyə uyğun olaraq, Azərbaycan tərəfi Ermənistanla Dağlıq Qarabağ erməniləri arasında heç bir fərq qoymur; Qarabağın *de fakto* hakimiyyəti ilə danışıqların aparılması bu hakimiyyətin suverenliyə olan iddialarını *a priori* legitimləşdirmək kimi qəbul edilir, və buna görə də istisna edilir. Ermənistanın rəsmi mövqeyi münaqişəni üçtərəfli çərçivədə təqdim edir. Bu mövqeyə əsasən, münaqişənin əsas iştirakçıları Dağlıq Qarabağ və Azərbaycandır, Ermənistan isə, yalnız ikinci dərəcəli rolu olan maraqlı tərəf və Qarabağ ermənilərinin təhlükəsizliyinin zamini kimi çıxış edir. İrredentizm ittihamlarını rədd edən Ermənistanın mövqeyi münaqişəni bütün Sovet İttifaqının dağılmasına gətirib çıxaran öz müqəddəratını təyin etmə və müstəmləkələrin azadlıq əldə etməsi səyləri çərçivəsində təqdim edir. Dağlıq Qarabağ erməniləri bu nəzər nöqtəsini dəstəkləyərək, ardıcıl olaraq danışıqların tamhüquqlu tərəfi kimi sülh prosesinə qoşulma təşəbbüsləri ilə çıxış edirlər.

Bunun ardınca G.Bağdasaryan və T.Hüseynov öz məqalələrində aydın nümayiş edirlər ki, konseptual terminologiya ziddiyyətləri Dağlıq Qarabağın erməni və azərbaycanlı icmalarının iddialarında da davamını tapmışlar. Kollektiv mənsubiyyətinə görə, müxtəlif hüquq və səlahiyyətlərə malik olmaq kimi sovet iyerarxiya anlamına uyğun tərbiyələnmiş Qarabağ erməniləri və azərbaycanlıları "azlıq" və "icma" (rusca-□□□□□□□) terminlərinə qarşı etiraz edir və Qarabağı öz vətənləri hesab edirlər.

Sovet irsinin kənar müşahidəçi üçün ən azı iki nəticəsi ola bilər. Birincisi ondan ibarətdir ki, terminologiyadan ehtiyatla və diqqətlə istifadə etmədikdə, bilmədən bu və ya digər tərəfə qərəzkarlıq göstərmək olar. Qarabağ münaqişəsi

leksikonunun mürəkkəbliyini və hər hansı terminin istifadəsində yarana bilən mümkün çətinlikləri nümayiş etmək üçün "Akkord"un bu nəşrinə əsas terminlərin ziddiyyətli təriflərini ətraflı izah edən siyasi lüğət daxildir. İkinci nəticə isə, muxtariyyət konsepsiyasının sovet hakimiyyəti vaxtında işləməyən federalizm təcrübəsi nəticəsində tam etibardan düşməsindən irəli gəlir. Cənubi Qafqazdakı separatist azlıqlar muxtariyyət vədlərinə bu vədləri verən mərkəzi hakimiyyət rəhbərləri kimi ciddi yanaşmırlar. Regiondakı münaqişələrə həll yolu kimi muxtariyyət təklif edən kənar iştirakçılar öz təkliflərinə daha ciddi münasibət görmək istəyirlərsə, bu konteksti nəzərə almalıdırlar.

## İştirakçılarla dolu sülh prosesi

Avropa, Avrasiya və Yaxın Şərq geosiyasi dairələrinin haşiyəsində yerləşən Qarabağ münaqişəsi müşahidəçiləri iştirakçıların sayı ilə heyrətləndirir. Tarix boyunca və bu gün də böyük dövlətlərin nüfuz üstündə yarışma meydanı olan Cənubi Qafqazda münaqişə yeni geosiyasi məkanla qismən üst-üstə düşmüş və onun yaranmasında öz izini qoymuşdur. Həqiqətən də, beynəlxalq vasitəçilərin bir-birinə rəqib niyyətləri və birtərəfli təşəbbüsləri tez-tez sülh prosesində irəliləyişin olmadığının başlıca səbəbləri kimi göstərilir. Ən ilk vasitəçilik cəhdlərini Rusiya, Qazaxıstan və İran göstərmişlər. 1992-ci ildən Qarabağ münaqişəsi bir çoxlarının fikrincə Soyuq müharibə geosiyasətinin əvəzinə gəlmiş "yeni dünya nizamının" və onu idarə etmək üçün yaradılmış institutlar - Avropa Təhlükəsizlik və Əməkdaşlıq Konfransı və sonradan Avropa Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının (ATƏT) sınağına çevrilmişdir. Məhz ATƏT-in himayəsi altında "Minsk Qrupuna" Qarabağ münaqişəsində vasitəçilik mandatı verilmişdir.

Cəbhədə cərəyan edən hadisələrə görə öncə yerindən çətin tərpənən ATƏT-in himayəsi altında aparılan proses sonradan çözümün tərkibi və metodologiyası barəsində tərəflər arasında razılığın əldə edilməsinə yönəlmişdir. Lakin V.Ceykobi öz məqaləsində göstərdiyi kimi, proses aparıcı dövlətlər arasında daha geniş əməkdaşlıq ümidlərini doğrultmadı. Ardınca gələn fəsillərdə T.Zülfüqarov və J.Libaridyan ehtiyat edirlər ki, sülh əks tərəfin xeyrinə olan yeni regional hegemonluq yaradacaq. Sözü gedən məqalələrdə həmçinin əksər sülh proseslərinə məxsus başlıca dilemmaya da nəzər yetirilir: qeyri-dövlət tərəflərinin iştirak etdiyi münaqişələrdə dövlətlərarası proseslərin dövlətlər tərəfindən idarəsində adətən gərginlik müşahidə edilir. Ola bilər ki, Dağlıq Qarabağın *de fakto* hakimiyyəti yüksək səviyyədə təşkilatlanmış və geniş struktura malik qeyri-dövlət qurumu kimi çıxış etsin, lakin eyni zamanda Libaridyanın fikrincə, azlıqların sabitlik, iqtisadi rifah və hüquqlarının qorunması zəmanətlərinin əvəzində müstəqillik niyyətlərindən əl çəkməsi haqqında fərziyyələr əsassızdır. Buna bənzər olaraq, T.Zülfüqarovun da məqaləsindən elə görünür ki, ərazi bütövlüyü prinsipini yüksək tutan təşkilatın Azərbaycanın xeyrinə vasitəçiliyi haqqında ümidlər də gerçəkləşmədi.

Buna baxmayaraq, bu məyusluq hissi əsas məqamı kölgədə saxlamamalıdır: sülh prosesinin hazırkı strukturu məhz ondan ən çox bəhrələnə bilən və yaxud ən çox itirə bilən icmaları - Qarabağ ermənilərı ilə məcburi köçmüş Qarabağ azərbaycanlı icmasını təcrid edir. Razılaşma əldə edilərsə, Azərbaycanın Xarici İşlər Nazirliyinin 2005-ci ilin iyununda qəbul etdiyi kimi, bu iki icmanın bir arada dinc yaşaması üçün aralarında əlaqələrin yaradılması gələcək sülhməramlı səylərin ayrılmaz hissəsinə çevrilməlidir.

Aydın seçilən regional hegemonun olmaması Qarabağ münaqişəsinin daha bir xüsusiyyətidir. Bu cəhət - atəşkəs rejiminin öz-özünü nizamlama təbiəti - O.Antonenkonun məqaləsində ətraflı araşdırılır. Atəşkəsin nisbi sabitliyi ona işarə edir ki, nə Ermənistan, nə də Azərbaycan hərbi əməliyyatlara yenidən başlamağa meylli deyillər. Lakin, S.Freyzer öz məqaləsində ehtiyat edir ki, atəşkəsin tez-tez pozulması, hərbi xərclərin artırılması və tərəflərinin bir-birinə düşmən kimi baxması sonda belə bir nəticəni qaçılmaz edə bilər.

## İştirakın amilləri: elita və cəmiyyətlər

Ermənistan və Azərbaycan cəmiyyətlərinin bəzi hissələrində münaqişənin həllinə doğru irəliləyişin olmamasında kənar iştirakçılar ittiham edilir, bu isə öz növbəsində sülh prosesində ictimai iştirak məsələsini meydana çıxarır. Bu nəşrin bir çox fəsillərində qeyd edildiyi kimi, hər iki ölkədə yalnız siyasi rəhbərliyin yüksək eşelonları digər tərəflə birbaşa təmasdadırlar: prezidentlər, onların köməkçiləri və xarici işlər nazirləri. Sovet sistemindən miras qalmış elitizm, qapalılıq və mərkəzləşdirmə sindromları bugünkü Ermənistan və Azərbaycanda sülhün nizamlanmasına olan yanaşmaların strukturunu müəyyən edir. Bu ölkələrdə hakimiyyətdə olan rejimlər sülh prosesinin idarə edilməsi və ona aid məlumatlar üzərində tam monopoliya saxlayırlar. Münaqişə ətrafında diskussiyaları genişləndirmək məqsədi ilə həyata keçirilən ayrı-ayrı vətəndaş təşəbbüsləri, və xüsusilə də münaqişə haqqında açıq danışmaq niyyətləri şübhələrlə, daha pis hallarda isə "təslimçilik" və "xəyanət" ittihamları ilə qarşılaşırlar. Sülh prosesindəki elitizm daha geniş cəmiyyətin iştirakını çətinləşdirir və eyni zamanda, Ermənistan və Azərbaycan rəhbərlərinin öz daxili auditoriyaları üçün nəzərdə tutulmuş və danışıqlar masası arxasındakı ritorika arasında fərqi izah edir. Bu hissənin məqalələri elita və cəmiyyətlər arasında münasibətləri və münaqişənin cəmiyyətin müxtəlif səviyyələrinə olan təsirini araşdırır.

Sülh prosesinin idarə edilməsinə və digər tərəflə əlaqələrə nəzarət vətəndaş cəmiyyəti səviyyəsində iştirak imkanlarını məhdudlaşdırmışdır. A.İşkanyan və Ə.Həsənovun birgə məqaləsində aydın göstərilir ki, vaxt getdikcə vətəndaş təşəbbüslərinin sayı azalmaqdadır, vətəndaş cəmiyyətinin iştirak çərçivəsini genişləndirmək imkanları isə məhduddur. Azərbaycanda vətəndaş cəmiyyəti neft gəlirlərindən bəhrələnən rejim qarşısında zəifdir. Ermənistanın vətəndaş cəmiyyəti üçün isə, digər məsələlər Qarabağ problemindən daha vacibdir, bu da onu təsdiqləyir ki, vətəndaş cəmiyyətinin prioritetləri heç də hər zaman onun barışıq üçün aparıcı qüvvə olmasına dair kənar müşahidəçilərin təsəvvürləri ilə üst-üstə düşmür.

Ş.Rzayev və M.Qriqoryan münaqişənin işıqlandırılmasında KİV-in rolunu şərh edirlər. Onlar kifayət qədər bədbin nəticəyə gəlirlər ki, müharibə jurnalistlər üçün daha geniş müstəqillik imkanları yaratsa da, savaşdan sonrakı durğunluq zamanı həm Ermənistanda, həm də Azərbaycanda kütləvi informasiya vasitələri müharibəyə çağırışlarla və mümkün güzəştlərin müzakirəsini rədd etməklə rəsmi mövqeləri dəstəkləmişlər. L.Bağdasaryan və A.Yunusovun məqaləsi Ermənistan və Azərbaycan cəmiyyətlərində baş vermiş mühüm sosial və mövqe dəyişikliklərinə həsr edilmişdir. Onların gəldiyi nəticəyə görə, qonşu olan və eyni zamanda bir-birindən təcrid olunmuş cəmiyyətlərdə müvazi sürətdə proseslər baş verir. Və sonda, F.Şampeyn hazırkı durğunluğun iqtisadi qiymətini nəzərdən keçirərək sülh prosesinə müsbət təsir göstərə bilən gələcək iqtisadi inkişafı dəyərləndirir.

Bütün məqalələr ümumilikdə cəmiyyətlərin beynəlxalq səviyyədə qalib (Ermənistan) və qurban (Azərbaycan) kimi tanınması istiqamətində addımlamasını və barışıqdan uzaq düşməsini ifadə edirlər. Müharibədən sonra yayılmış bir-birinə zidd olan bu iki təsvir dialoq siyasətinə ciddi maneələr yaradır, lakin eyni zamanda, hər bir tərəf bu təsvirlərdən digər tərəfi təsvir etmək üçün istifadə edir. Bu təsvirlərin əsasında milli ideologiyalara bağlanmış tarixi ədalətin ziddiyyətli anlayışları durur. Məsələn, əgər erməni mənbələrində Ermənistan-Azərbaycan münaqişəsi "türklərin" törətdiyi geniş soyqırım çərçivəsində təqdim edilirsə, Azərbaycanın rəsmi mənbələri qaçqınlar və məcburi köçkünlər problemini sırf Azərbaycanın problemi kimi təsvir edirlər. Bundan əlavə, bu "rəmzi təsvirlərin" tərs məqamı da mövcuddur, buna sübut kimi Azərbaycanın Qarabağ münaqişəsini ermənilərin törətdiyi "soyqırım" kimi təqdim etməsini misal çəkmək olar. Hər bir tərəfdə zorakılığın ən ifrat hallarını qabartmaq meylləri vardır (azərbaycanlılar üçün bu Xocalı qırğını, ermənilər üçün isə Sumqayıt və Bakıdakı qırğınlardır). Belə hadisələr səciyyəvi xarakter daşımasa da, iki xalqın yaddaşında həmişəlik həkk olunub. Bu prosesdə yan-yana yaşama haqqında xatirələr silinib getmişdir: münaqişə gərginləşdikcə hər iki tərəf bir-birinə qarşı olan tarixi düşmənçiliyi "yadlarına saldılar", indi isə bu düşmənçilik KİV vasitəsilə yayımlanan rəsmi ritorikada yer tapmışdır. İki paralel xətt kimi, Ermənistan və Azərbaycan tarixlərinin də kəsişmə nöqtələri yoxdur.

## Demokratikləşmə və sülh potensialı

Əgər 1990-cı illərdə milli zəmində baş verən münaqişələr Cənubi Qafqazda bərpa edilmiş müstəqil dövlətçiliyin konturlarını müəyyən edirdisə, cari onillik dövlət və cəmiyyət arasında bu dövlətçiliyin formalarına dair qarşıdurma ilə xarakterizə edilir. Son illər həm Ermənistan, həm də Azərbaycan rejimləri demokratikləşmənin sürəti və səviyyəsi ilə bağlı cəmiyyətin narazılığı ilə üzləşmişlər. Böyük dəstəyə malik olmayan və bunun nəticəsində geniş şəkildə döyüşçülük ruhunu həvəsləndirən siyasi elitalar istənilən sülh razılaşmasının tərkib hissəsi olan güzəştlər üçün demək olar ki, yer saxlamayıblar. Danışıqlar masası arxasında əldə edilmiş ilkin razılaşmalar dəfələrlə cəmiyyətlərin daxilində rədd edilib. R.Musabəyov və H.Çilingiryanın öz məqalələrində gəldikləri qənaətə görə, həm Azərbaycan, həm də Ermənistan hakimiyyəti "nə sülh, nə savaş" durğunluğundan problemin həlli üçün lazımi şəraiti yaratmaq əvəzinə öz daxili siyasi məqsədlərinə nail olmaq üçün istifadə edirlər. Nəhayət, Broersin məqaləsi Dağlıq Qarabağın özündə tanınmamağın siyasi inkişaf və demokratikləşmə proseslərinə olan təsirini tədqiq edir. Müəlliflər ümumilikdə düşünürlər ki, yalnız bütün regionda dövlət-cəmiyyət münasibətlərinin yaxşılaşması nəticəsində əldə ediləcək demokratik dividentlər sülh prosesini irəli aparmaq üçün lazımi resursları təmin edə bilər.

Nizamlamada irəliləyişin əldə edilməsi üçün ictimaiyyətin iştirakının genişlənməsi və dərinləşməsi, onun sülh prosesinə sahiblik etməsi zəruridir. Bunların həyata keçməsi üçün hakimiyyətdə olan rejimlər öz mandatlarında əmin olmalı və nüfuzlarını artırmaq üçün Qarabağ məsələsində sərt mövqedən çıxış etməkdə zərurət görməməlidirlər. Bu məqsədə nail olmaqda dövlətin və cəmiyyətin əməkdaşlığı üçün daha geniş meydan yaratmaq və həm cəmiyyətlərin daxilində, həm də onların arasında dialoq siyasətinin həyata keçirilməsi lazımdır. Qarabağ münaqişəsi başladığı ilk gündən öz transformasiya potensialını dəfələrlə nümayiş etmişdir. Münaqişənin gələcəkdə həll edilməsi Ermənistan və Azərbaycanda həm siyasi elita, həm də geniş ictimaiyyətin siyasəti dəyişmək məsələsinə münasibətindən bilavasitə asılıdır.